Nailiyyətlər, müsbət dinamika

2025-ci ilə möhkəm və etibarlı körpü salır

Dünya dövlətləri ilə dostluq münasibətləri, əməkdaşlıq əlaqələri quran Azərbaycan bu gün inkişaf etməkdə olan ölkələr sırasında qərarlaşıb. Uzaqgörən, düşünülmüş siyasət sayəsində əldə olunan nailiyyətlər müstəqil dövlətimizin nüfuzunu günbəgün artırır. Beynəlxalq səviyyədə, həm də ölkə daxilində qazanılan uğurlar bütün sahələri əhatə edir. Respublikamızın hərtərəfli inkişafına hesablanmış islahatlar iqtisadiyyat, elm, texnika, təhsil, səhiyyə sahələri ilə yanaşı, mədəniyyət sahəsində də öz əksini tapır. Bu baxımdan, son 21 il müasir Azərbaycan tarixinə yüksəliş dövrü kimi daxil olmuşdur. Yola saldığımız 2024-cü ildə mədəniyyət sahəsində bir sıra uğurlara imza atılmış, müxtəlif ölkələrlə mədəni əlaqələr möhkəmləndirilmiş, respublika daxilində mühüm əhəmiyyətli tədbirlər keçirilmişdir.

İl ərzində ölkəmizdə mədəniyyət siyasətinin həyata keçirilməsi istiqamətində əsaslı addımlar atılmışdır. Dövlət başçısının müvafiq sərəncamları ilə mədəniyyət xadimlərinin əməyinin qiymətləndirilməsi, işğaldan azad edilmiş ərazilərdə Şəhər günlərinin təntənəli şəkildə qeyd edilməsi, 2024-cü il üçün Şuşa şəhərinin "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilməsi, VII "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı, Vaqif Poeziya Günləri, Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı, Bakı Beynəlxalq Kitab sərgisi, həmçinin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində keçirilən tədbirlər Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən həyata keçirilən işləri əhatə edir.

Xarici ölkələrdə Azərbaycanın, respublikamızda dost ölkələrin mədəniyyət günlərinin keçirilməsi, film təqdimatları, yaradıcı sənaye istiqaməti üzrə layihələr, zəngin mədəni irsimizin qorunması, təbliği və mədəniyyətimizin inkişafında böyük xidmətləri olan, onun formalaşmasında və dünya miqyasına çıxmasında mühüm rol oynayan sənətkarlarımızın daha geniş miqyasda tanıdılması istiqamətində tədbirlər təşkil olunmuşdur.

2024-cü il martın 15-də Azərbaycan Milli Xalça Muzeyində Novruz bayramının UNESCO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına salınmasının 15-ci ildönümünə həsr olunmuş "Türk xalqlarının geyim və zərgərlik mədəniyyəti" adlı sərgi Türk Mədəniyyəti və İrsi Fondu, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Azərbaycan Milli Xalça Muzeyinin birgə təşkilatçılığı ilə baş tutmuşdur. 31 mart tarixinədək davam edən sərgidə Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Macarıstan, Özbəkistan, Türkiyə və Türkmənistana aid ənənəvi qadın geyimləri, həmçinin zərgərlik əşyaları nümayiş etdirilmişdir. UNESCO çərçivəsində birgə fəaliyyət mədəni irsimizin qorunub saxlanması və gələcək nəsillərə ötürülməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Bu il aprel ayının 4-də Azıx və Tağlar mağara düşərgələrinin Ümumdünya İrs Siyahısına daxil edilməsi üçün müvafiq tədbirlərin görülməsi, o cümlədən nominasiya faylının hazırlanması üçün Xocavənd rayonunda yerləşən Azıx mağarasına səfər buna bariz nümunədir. Eyni zamanda Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən hazırlanan "Qədim Qəbələ şəhəri" və "Gəmiqaya və Göygöl Tarixi-Mədəni və Təbii Kompleksi" nominasiyaları ilə bağlı sənədlər UNESCO Ümumdünya İrs Komitəsinin İlkin Siyahısına daxil edilmişdir. Quba şəhərində "Soyqırım Memorial Kompleksi" adlı nominasiya faylı da UNESCO-ya təqdim edilmişdir. Həmçinin Paraqvayın Asunsion şəhərində keçirilən UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Hökumətlərarası Komitəsinin 19-cu sessiyasında "Azərbaycanda təndir sənətkarlığı və çörək bişirmə mədəniyyəti" nominasiyası Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsinin Reprezentativ Siyahısına daxil edilmişdir.

Ölkəmizin ən səfalı, dilbər guşəsi olan Qarabağa vaxtilə dünyanın dörd bir tərəfindən gələn turistlər, burada keçirilən beynəlxalq səviyyəli tədbirlər yaşlı nəslin yaddaşındadır. Artıq o günlər geri qayıdıb. Dilbər guşəmiz öz qapılarını yalnız 30 il bir-birinə həsrət qalan yerli əhalisinə deyil, o cümlədən xoş niyyətli, xoş məqsədli dostların da üzünə açır. Torpaqlarımızın işğaldan azad olunmasından sonra Qarabağda "Xarıbülbül" festivalı, Vaqif Poeziya Günləri ənənəvi şəkildə qeyd olunur. Ermənistan ilə Azərbaycan arasında 30 il davam edən münaqişə zamanı, o cümlədən 44 günlük Vətən müharibəsinin gedişatında Azərbaycanın haqq işini dəstəkləyən, eyni zamanda postmüharibə dövründə Qarabağın yenidən qurulmasında yaxından iştirak edən dost ölkələrin dövlət rəsmiləri indi türk birliyini, həmrəyliyini möhkəmləndirmək üçün türk dünyasının mədəniyyət paytaxtı - Şuşada toplaşırlar. Mayın 11-12-də Şuşa şəhərində Mədəniyyət Nazirliyi və Heydər Əliyev Fondunun birgə təşkilatçılığı ilə keçirilən "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı çərçivəsində Mədəniyyət Nazirliyi və İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının - ICESCO-nun birgə təşkilatçılığı ilə "Şuşa - İslam dünyasının mədəniyyət paytaxtı - 2024" ilinin rəsmi açılış mərasimi olmuşdur. Mərasimdə ICESCO-nun baş direktoru Səlim Əl-Malik, Fələstin, Qambiya, Uqanda, Maldiv, Özbəkistanın mədəniyyət nazirləri, İran və BƏƏ-nin mədəniyyət nazirlərinin müavinləri, digər rəsmilər, türk dövlətlərindən mədəniyyət xadimləri iştirak etmişlər. Həmçinin "Şuşa İslam Dünyasının Mədəniyyət Paytaxtı - 2024" ili çərçivəsində oktyabr ayının ilk günlərində Şuşa şəhərində İslam Dünyası İrs Komitəsinin 12-ci görüşü keçirilmiş, Şuşaya gələn qonaqlar üçün mədəni irs yerlərinə ekskursiyalar təşkil edilmişdir.

31 may - 3 iyun tarixlərində Şuşada və Bakıda keçirilən "Rəqəmsal Yaradıcı Həftəsonu" (Digital Creative Weekend) layihəsi çərçivəsində Mədəniyyət Nazirliyinin dəstəyi, İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı və "New Space Open Innovation"ın əməkdaşlığı ilə "A-Hub Akselerasiya Proqramı"nın dünya finalında 11 ölkədən - Azərbaycan, Cibuti, Tunis, Tacikistan, Türkiyə, Liviya, Seneqal, Somali, Misir, Mali, Sudandan 30-dan çox innovativ komandalar iştirak etmişdir.

Beynəlxalq təşkilatlarda, nüfuzlu qurumlarda adı hörmətlə çəkilən Azərbaycanın çox böyük əhəmiyyət kəsb edən tədbirlərə ev sahibi seçilməsi ölkəmizin beynəlxalq aləmdə sabitlik adası kimi tanınmasının göstəricisidir. Azərbaycanın iqlim dəyişmələrinin yaratdığı fəsadlarla mübarizə səyləri də qlobal miqyasda dəstəklənir. BMT-dən sonra ən böyük təsisat olan Qoşulmama Hərəkatına 4 il uğurla ev sahibliyi edən, Avropa Oyunlarını, Beynəlxalq Astronavtika Konqresini böyük müvəffəqiyyətlə keçirən Azərbaycan bu il təxminən 200 ölkənin yekdil dəstəyi ilə dünyanın ən mötəbər tədbiri olan COP29-a uğurla ev sahibliyi etdi. Bu tədbirin ölkəmizdə keçirilməsi qarşıya qoyulan hədəflərə çatan, siyasi, iqtisadi sahədə heç bir ölkədən asılılığı olmayan dövlətimizin dünya birliyində layiqli yerə, dəyişməz mövqeyə sahib olduğunu bir daha təsdiq etdi.

Bu ilin noyabr ayında Mədəniyyət Nazirliyi tərəfindən COP29 çərçivəsində mədəniyyətin iqlim fəaliyyətindəki roluna həsr olunan bir sıra tədbirlər keçirilmişdir. Sentyabrın 12-14-də Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimlinin rəhbərliyi ilə nümayəndə heyətinin Rusiyanın Sankt-Peterburq şəhərinə səfəri zamanı COP29 çərçivəsində Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) və Braziliya mədəniyyət nazirləri ilə üçtərəfli görüş baş tutmuşdur. Həmçinin nümayəndə heyətinin X Beynəlxalq Birləşmiş Mədəniyyətlər Forumu və MDB iştirakçısı Dövlətlərin Mədəni Əməkdaşlıq Şurasının iclasında iştirakı təmin olunmuşdur.

Müstəqil Dövlətlər Birliyi (MDB) iştirakçı dövlətlərinin Humanitar Əməkdaşlıq Şurası və Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondunun birgə iclasında "Birliyin Mədəniyyət Paytaxtı" Dövlətlərarası Proqramının 2025-ci ildə Azərbaycan Respublikasında keçirilməsi və ölkəmizin şəhərlərindən birinə "Birliyin Mədəniyyət Paytaxtı" statusunun verilməsi üçün namizədliyi irəli sürülmüş və MDB Humanitar Əməkdaşlıq Şurasının qərarına əsasən Laçın şəhəri 2025-ci il üçün MDB-nin mədəniyyət paytaxtı elan edilmişdir. Noyabrın 15-də Mədəniyyətə əsaslanan İqlim Fəaliyyətinin Dostları Qrupunun (GFCBCA) həmsədrləri qismində Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) və Braziliyanın birgə təşkilatçılığı ilə ümumilikdə 27 ölkə nümayəndəsi və 20-yə yaxın müxtəlif beynəlxalq təşkilat nümayəndələrinin iştirakı ilə "Mədəniyyətə əsaslanan iqlim fəaliyyəti üzrə ikinci Yüksək Səviyyəli Nazirlər Dialoqu", "İqlim üçün Mədəniyyət" yan tədbiri və Azərbaycanın "Culture for Climate" (C4C) təşəbbüsünün təqdimatı həyata keçirilmişdir. Həmçinin noyabrın 11-22-də Bakı şəhərində baş tutan COP29 konfransı çərçivəsində Milli Xalça Muzeyi, Azərbaycan Milli İncəsənət Muzeyi və Milli Azərbaycan Tarixi Muzeyinin kolleksiyalarından seçilmiş eksponatlar Bakı Olimpiya Stadionunda "Təbiətin simvolları: Azərbaycanın bədii irsi" adlı sərgidə nümayiş olunmuşdur.

İctimaiyyətin diqqətini ətraf mühitin mühafizəsi, tarix və mədəniyyət abidələrinin qorunması, habelə təbliği işinə yönəltmək məqsədilə 18 Aprel - Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü ilə əlaqədar ölkə ərazisində yerləşən 29 tarix və mədəniyyət abidəsində tədbirlər təşkil edilmişdir. Paytaxtda və bölgələrdə bu il sistemli şəkildə ilk dəfə gerçəkləşən tədbirlər BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 və "Yaşıl dünya naminə həmrəylik ili"nə həsr olunmuşdur. Təxminən 9 min nəfərə yaxın ziyarətçi Ramana, Böyük Mərdəkan və Kiçik Mərdəkan qəsrləri, "Allah-Allah", Möminə xatın və Qarabağlar türbələri, Uğurlu Xan karvansarası, İsrafil Ağa və Hündür günbəzli hamamları, Mir Əhməd xanın yaşayış evi, tarixi məscidlər, eləcə də tarix-mədəniyyət qoruqları ilə tanış olmuş, xoş təəssüratlarla ayrılmışlar. Eyni zamanda "Yaşıl Gələcək" layihəsi çərçivəsində 18 Aprel - Beynəlxalq Abidələr və Tarixi Yerlər Günündə ağacəkmə aksiyasında 241 ağac əkilmişdir.

Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Dövlətin memarı. Bir ömrün ensiklopediyası" adlı unikal xalçanın Azərbaycan Milli Xalça Muzeyində növbəti təqdimatı keçirilmişdir. Həmin gün Xalq rəssamı Səttar Bəhlulzadənin 115 və dahi Azərbaycan şairi, mütəfəkkiri Məhəmməd Füzulinin 530 illiyinə həsr olunmuş "Səttarın Füzulisi" adlı sərgi də təşkil olunmuşdur. Sərgidə rəssamın şəxsi kolleksiyalarda qorunan, böyük əksəriyyəti ilk dəfə nümayiş olunan və Füzuli poeziyasına həsr edilmiş boyakarlıq və qrafika işləri, o cümlədən "Şəbi-hicran", "Füzuli", "Məcnun", "Leyli" və başqa əsərləri sərgilənmişdir.

Prezident İlham Əliyev tərəfindən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq edilməsi ərazilərimizin yenidən qurulmasında mühüm addımdır. Proqramın icrası çərçivəsində Azərbaycanın işğaldan azad edilmiş ərazilərində sosial-iqtisadi inkişafın təmin edilməsi, əhalinin geri qayıdışının təşkili, mədəniyyətin bərpası və inkişafı məqsədilə bir çox tədbirlər həyata keçirilmişdir. Dövlət Proqramının icrası istiqamətində işğaldan azad edilmiş ərazilərdə, xüsusilə Şuşa, Laçın, Ağdam, Füzuli və digər bölgələrdəki tarix və mədəniyyət abidələrinin vəziyyəti qiymətləndirilmiş, bərpa işlərinə başlanılmışdır. Bu məqsədlə mütəxəssislərdən ibarət komissiyalar yaradılmış, ərazilərdəki abidələrin inventarizasiyası aparılmışdır. Ölkə başçısının rəhbərliyi ilə Qarabağ və Şərqi Zəngəzur bölgələrində mədəniyyətin bərpası məqsədilə nazirlik tərəfindən kompleks tədbirlər davam etdirilir. İşğaldan azad edilmiş ərazilərdə mədəniyyət sahəsində bərpa prosesinin sistemli və məqsədyönlü şəkildə təşkili, həmçinin mədəniyyət abidələrinin qorunması və inkişafı üçün konkret işlər görülür. Yol xəritəsinin hazırlanması və həyata keçirilməsi yalnız mədəniyyətin bərpası deyil, həm də bu ərazilərdə yaşayan insanların mənəvi tələbatını ödəməyə hədəflənir.

İşğaldan azad edilmiş ərazilərdə əhaliyə, dövlət əmlakına, sahibkarlıq subyektlərinə və ölkəmizin təbii sərvətlərinə dəymiş ziyanın qiymətləndirilməsi məqsədilə Qarabağ Rəqəmsal Geoinformasiya Sistemində Mədəniyyət Nazirliyinin istifadəsində və balansında olmuş daşınmaz əmlaklar haqqında yerləşdirilmiş məlumatlara müvafiq düzəlişlər edilərək aidiyyəti qurumlara göndərilmişdir. İşğal və Zəfər muzeyləri komplekslərinin yaradılması ilə bağlı Nazirlik tərəfindən həyata keçirilən tədbirlər sırasında xarici şirkətlər və mütəxəssislər ilə sıx əməkdaşlıq nəticəsində qısa müddət ərzində komplekslər üçün xüsusi konsepsiyaların hazırlanması əsas yer tutur. 2021-2023-cü illərdə Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Kəlbəcər, Qubadlı və Laçın rayonlarında Azərbaycan Respublikası Prezidentinin iştirakı ilə sözügedən komplekslərin təməlləri qoyulmuş, bu il isə Şuşa, Qubadlı və Laçın şəhərlərində İşğal və Zəfər muzeylərinin layihələndirmə işləri davam etdirilmişdir.

2024-cü il sentyabrın 19-da Prezident İlham Əliyev Şuşada Heydər Əliyev Fondunun dəstəyilə təmir və bərpa işləri aparılan Üzeyir Hacıbəylinin ev-muzeyinin açılışında iştirak etmişdir. Burada muzeyin konsepsiyası üzrə Üzeyir Hacıbəylinin ev-muzeyinin xilas edilən eksponatları ilə yanaşı, Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyi və Ü.Hacıbəylinin Bakıdakı ev-muzeyinin fondlarında qorunub saxlanılan eksponatlar da nümayiş olunur. Dövlət başçısının tapşırığına uyğun olaraq ötən il yerli və xarici mütəxəssislər cəlb olunaraq restavrasiya və arxeoloji tədqiqat işlərinə başlanılan Ağdam İmarət Kompleksinin açılış mərasimi də həmin gün olmuşdur. Ərazisi 3,3 hektar olan kompleks mərasimlərin keçirilməsi üçün nəzərdə tutulmuş tikililər, türbələr, tarixi qəbiristanlıq, Qarabağ atlarının təqdimatı üçün atçılıq kompleksi və ziyarətçi mərkəzindən ibarətdir. Şabran rayonu ərazisində "Çıraqqala" abidəsində də möhkəmləndirmə, bərpa-konservasiya işləri davam etdirilir. Tarixi abidənin bürc və bürclərarası qala divarlarında, tam yararsız vəziyyətə düşmüş tarixi körpüdə, ovdanda, həmçinin ərazidə aparılmış arxeoloji tədqiqatlar nəticəsində aşkar olunmuş tikilidə bərpa-konservasiya işləri aparılmışdır. Mədəni irsin bərpası və qorunub saxlanması istiqamətində İrəvan Dövlət Azərbaycan Dram Teatrının binasında əsaslı təmir və yenidənqurma yekunlaşmışdır.

Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti ilə Türk Mədəniyyəti və İrsi Fondu arasında "Azərbaycan Respublikası ərazisində yerləşən tarix və mədəniyyət abidələrinin qorunması və bərpası sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu"na əsasən ilk olaraq Füzuli rayonunun işğaldan azad olunmuş Qoçəhmədli kəndində yerləşən məscidin bərpası həyata keçiriləcək. Ən mühüm işlərdən biri də işğaldan azad edilmiş ərazilərdə yerləşən tarix və mədəniyyət abidələrinin pasportlaşdırılması və mühafizə zonalarının müəyyənləşdirilməsidir. 44 günlük müharibədə, o cümlədən ötən il sentyabr ayının 19-20-də həyata keçirilən 23 saatlıq antiterror tədbirlərindən sonra ərazilərimizdə Mədəniyyət Nazirliyi tərəfindən 196-sı Şuşa şəhərində olmaqla 542 abidənin, eləcə də 368 tarixi, memarlıq və arxeoloji əlamət kəsb edən obyektin inventarlaşdırması aparılmışdır. Dövlət mühafizəsində olan 705 abidədən 163-də isə inventarlaşdırılma işlərinin həyata keçirilməsi isə mümkün olmamışdır. Çünki bu abidələrin əksəriyyəti təhlükəsizlik baxımından riskli, yaşayış məntəqələrindən kənar, yüksək dağlıq və meşəlik ərazilərdə yerləşir. Həmçinin arxeoloji abidələrin yerlərinin müəyyənləşdirilməsi üçün yetərli məlumatların olmaması, eləcə də işğaldan əvvəlki dövrlərə aid siyahılarda abidələrin ünvanlarının dəqiq göstərilməməsi inventarlaşdırılma işlərinin aparılmasında çətinlik törədir.

Bu işlərlə paralel xarici mütəxəssislərin iştirakı ilə Böyük Qayıdış proqramı çərçivəsində Əsgəran qalasının bərpası, həmçinin həmin ərazilərdə böyük turizm potensiallı təbii və mədəni landşaft infrastrukturunun yaradılması istiqamətində müvafiq tapşırıqlara uyğun olaraq, ərazinin öyrənilməsi və layihələndirilməsi işləri aparılır. Dövlət Xidmətinin təşkilatçılığı ilə bu il mart ayının 31-də Quba şəhərində "Soyqırımı Memorial Kompleksi"ndə "1918-ci il Azərbaycanlıların Soyqırımı"nın 106-cı ildönümünə həsr edilmiş, 10.000 nəfərdən çox ziyarətçinin iştirak etdiyi anım mərasimi ilə əlaqədar tədbir keçirilmişdir.

2024-cü il ərzində Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin beynəlxalq sahədə fəaliyyəti davam etdirilmiş, həm mədəni irs üzrə beynəlxalq təşkilatlarla əməkdaşlıq, həm də xarici ölkələrlə ikitərəfli əlaqələr gücləndirilmişdir. Belə ki, Dövlət Xidməti ölkəmizdə keçirilən yerli və beynəlxalq, eyni zamanda xarici ölkələrdə baş tutan tədbirlərdə fəal iştirak etmişdir. Aprel ayında Türkiyə Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Mədəniyyət Abidələri və Muzeylər Baş İdarəsinin Ərzurum Bərpa və Konservasiya Bölgə Laboratoriyasının, Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin nümayəndələri ilə geniş tərkibli görüşdə ölkəmizdə tarixi abidələrin bərpa laboratoriyasının qurulması və analizlərin aparılması məsələləri müzakirə olunmuşdur. Eyni zamanda "Keşikçidağ" Dövlət Tarix-Mədəniyyət Qoruğunda aşkar olunmuş artefaktlar radiokarbon analiz edilməsi üçün Türkiyə Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Mədəniyyət Abidələri və Muzeylər Baş İdarəsinin Ərzurum Bərpa və Konservasiya Bölgə Laboratoriyasına göndərilmişdir. Dövlət Xidmətinin rəisi Səbinə Hacıyevanın Kuba Respublikasının Tarixi Havana Şəhər İdarəsinin baş direktor müavini Perla Rosales Aguirreurreta ilə görüşü 1-3 may tarixlərində Azərbaycan hökumətinin təşkilatçılığı, UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Dünya Turizm Təşkilatı və ICESCO-nun tərəfdaşlığı ilə keçirilən VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində baş tutmuşdur. Milli Azərbaycan Tarixi Muzeyində Mədəniyyət Nazirliyi və UNESCO-nun Ümumdünya İrs Mərkəzinin birgə təşkilatçılığı, UNESCO-Yaponiya Etimad Fondunun və Mərkəzi Asiya Araşdırmaları Beynəlxalq İnstitutunun dəstəyi ilə "İpək Yolu Volqa-Xəzər Dəhlizi: İkinci İllik Subregional" konfransı keçirilmişdir. Hibrid formatda keçirilən tədbirə Xəzər regionu ölkələrindən - Azərbaycan, İran, Qazaxıstan, Rusiya və Türkmənistandan olan nümayəndələr, eləcə də UNESCO, Böyük Britaniya və Yaponiyadan olan ekspertlər qatılmışlar. Konfrans "İpək Yolu Volqa-Xəzər Dəhlizi Transsərhəd Nominasiyası"na təqdim ediləcək mədəni irs obyektlərinin müəyyənləşdirilməsi, müvafiq sənədlərin dəhlizə daxil olan 5 ölkənin hökumət nümayəndələri, milli əlaqələndiriciləri, yerli və beynəlxalq ekspertlərlə müzakirə olunması məqsədilə təşkil olunmuşdur.

Bəli, yola saldığımız 2024-cü il böyük nailiyyətlərlə zəngin olmuşdur. Bütün sahələrdə əldə olunan irəliləyişlər, müsbət dinamika qarşıladığımız 2025-ci ilə möhkəm, etibarlı körpü salır. Hər bir Azərbaycan vətəndaşı əmindir ki, qarşıdakı illərdə dövlətimizi, xalqımızı daha böyük uğurlar gözləyir.

Mehparə ƏLİYEVA,
"Respublika".